Tarix və onun problemləri, №1-2 2009

ƏSMƏD MUXTAROVA
*BDU-nun professoru,*
SƏİDƏ ƏLİ QIZI
*BDU-nun dosenti*

# MİLLİ QÜRUR VƏ İFTİXAR DOĞURAN ÖMÜR
## (Yaqub Mahmudovun anadan olmasının 70 illiyi)

Kamillik insanlığın zirvəsidir və bu zirvəni fəth etmək çox az adama nəsib olur. Kamillik zirvəsinə çatanlar İnsanlığın ən gözəl xüsusiyyətlərini vəhdət şəklində özündə təcəssüm etdirir. Bu vəhdətin əldə olunması soy kökdən başlayıb, ömür boyu çəkilən gərgin zəhmətin, fədakarlığın, insanpərvərliyin, alicənablığın, ən böyük mənada isə Vətən və millət sevgisinin nəticəsidir. Kamillik zirvəsini fəth edənlər ömürlərini xalq üçün məşələ çevirib millətini, xalqını, Vətənini zirvələrə qaldıranlardır. Odur ki, Vətən də, xalq da tarix boyu belə şəxsiyyətləri ilə qürur duyur və onlarla fəxr edir.

Zəmanəmizin görkəmli mütəfəkkiri, tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, tanınmış ictimai-siyasi xadim Yaqub Mahmudov millətinə və xalqına baş ucalığı gətirən dolğun və mənalı bir ömür yolu keçərək, kamillik zirvəsinə yüksəlmişdir. Yaqub Mahmudovun Azərbaycan cəmiyyətində, ictimai fikir tariximizdə və tarixşünaslığımızda müstəsna yeri və rolu vardır. Bu müstəsnalıq onun Vətəninə, xalqına, milli dövlətçiliyimizə, milli mədəniyyətimizə və ümumiyyətlə milli dəyərlərimizə sıx bağlılığındadır.

Yaqub Mikayıl oğlu Mahmudov 10 fevral 1939-cu ildə Azərbaycanın Şəki rayonu Baş Göynük kəndində anadan olmuşdur. Atası, Mikayıl Mahmud oğlu Azərbaycan türklərinin 1918-1920-ci illərdə daşnak-bolşevik birləşmələrinə qarşı apardığı milli-azadlıq mübarizəsinin təşkilatçılarından və iştirakçılarından biri olmuş, Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşanın hərbi əməliyyatlarında iştirak etmiş, 30-cu illərdə bu bölgədə Sovet hakimiyyətinin zorakı kollektivləşdirmə siyasətinin həyata keçirilməsinə etiraz kimi başlanmış üsyanın başçılarından biri olmusdu.

II dünya müharibəsi ərəfəsində, Stalin repressiyalarının və totalitar sovet rejiminin daha da amansızlaşdığı bir zamanda dünyaya göz açan Y.Mahmudovun uşaqlığı müharibənin ağrılı-acılı illərinə təsadüf edir və təbii ki, həmin dövrdə ölkədəki və bölgədəki vəziyyət, orduya kütləvi səfərbərliklər, faşist Almaniyası üzərində qələbə naminə xalqın hər cür çətinliyə və məhrumiyyətlərə dözərək əzmlə ən ağır zəhmətə qatlaşması, cəbhələrdən gələn "qara xəbərlər" və ən nəhayət düşmən üzərində qələbə onun Vətən sevgisinin, gələcəkdə xalqına daha sıx bağlanmasının bünövrəsini qoymuşdu. Ailədə hökm sürən abı-hava, zülmə qarşı barışmazlıq və mübarizlık ruhu, milli dəyərlərə çox böyük hörmət və ehtiram artıq uşaq yaşlarından onun milliyyətçilik baxışlarının formalaşmasında mühüm rol oynamışdı. Bu dövr Y.Mahmudovun həyata baxışlarının təşəkkülündə xüsusi yer tutur və yəqin ki, sonralar onun məhz tarixçi ixtisasını seçməsi, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olaraq, öz taleyini xalqın tarixi taleyi ilə bağlaması da buradan qaynaqlanır.

1956-cı ildə Balakən rayonunun Sarıbulaq kənd orta məktəbini bitirən Y.Mahmudov ilk pedaqoji fəaliyyətə də burada başlayır, tərbiyəçi-müəllim işləyir.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) tarix fakültəsinə daxil olan Y.Mahmudov təhsil illərində dərs əlaçısı kimi ən yüksək təqaüdlərə - əvvəlcə Stalin, sonra isə Lenin təqaüdlərinə layiq görülür. Fakültənin və universitetin ictimai işlərində yaxından iştirak edir, elmi axtarışlara xüsusi maraq göstərir. 1962-ci ildə universiteti əla qiymətlərlə başa vurduqdan sonra Y.Mahmudov

aspiranturaya daxıl olur. O, digər gənc tarixçilərdən fərqli olaraq, o zaman sovet tarix elminin stereotiplərinə uyğun gələn və dəbdə olan sosializm quruculuğu problemlərinə deyil, görkəmli oriyentalist alim Ə.Şahmalıyevin rəhbərliyi altında Azərbaycan tarixinin ən çətin problemlərindən birinə – Azərbaycanin zəngin dövlətçilik ənənələrinə, konkret olaraq, Azərbaycan Ağqoyunlu dövlətinin Avropa ilə qarşılıqlı əlaqələri probleminə müraciət edir. Məsələ burasındadır ki, həmin illər totalitar sovet rejiminin azğınlıqla tüğyan etdiyi illər idi, imperiya dövləti və Sovet İttifaqı Kommunist Partiyası imperiyanin tərkibində olan xalqların milli dövlətçiliyini, milli mədəniyyətini, milli-mənəvi dəyərlərini zorakılıqla unutdurmaq siyasətini ümumdövlət səviyyəsində həyata keçirir, guya formaca milli, məzmunca sosialist mədəniyyətinin yarandığını, SSRİ-də insanların yeni tarixi birliyinin – "sovet xalqı"nın" təşəkkül tapdığını bəyan edir və bütün xalqları tədricən öz soy kökündən ayıraraq bu ad altında birləşdirmək və rus xalqının içərisində əritmək siyasəti yeridirdi. Belə bir zamanda sovet ideologiyasının hər vəchlə unutdurmağa çalışdığı bir mövzuya müraciət etmək və özü də Azərbaycan Ağqoyunlu dövlətinin Avropa dövlətləri ilə qarşılıqlı əlaqələrini tədqiq etmək, onun həmin dövrün beynəlxalq münasibətlər sisteminin bir subyekti olduğunu elmi dəlillərlə sübuta yetirmək və bununla da milli dövlətçilik konsepsiyasının yaranmasina xidmət etmək, onu gündəmə gətirmək, zəngin arxiv mənbələrini, müxtəlif dilli və növlü ədəbiyyatı tədqiq edərək elmi dövriyyəyə daxil etmək, bu tarixi faktları elmi ictimaiyyətin və geniş oxucu kütləsinin şüuruna həkk etdirmək, həm də bu faktların SSRİ-nin tanınmış alimləri tərəfindən qəbul və təsdiq edilməsinə nail olmaq həqiqətən də çox böyük elmi və vətəndaşlıq cəsarəti və qeyrəti tələb edirdi. Y.Mahmudov özünün bu cəsarətli addımları ilə sovet gerçəkliyi şəraitində xalqın tarixi yaddaşını, milli qürurunu, milli mübarizə ruhunu ona qaytarırdı, xalqa milli mənlik şüuru aşılayırdı.

Onun namizədlik dissertasiyası Universitetin Tarix fakültəsinin Elmi Şurası tərəfindən yüksək qiymətləndirilərək, yekdilliklə ona birbaşa tarix elmləri doktoru alimlik dərəcəsi vermək qərara alınır. Lakin bəzi üzdəniraq "tarixçilər"" gənc alimin uğurlarına qısqanclıqla yanaşaraq, həmin qərarın Universitetin Böyük Elmi Şurasında təsdiq edilməsinə mane olurlar.

1966-cı ildən Azərbaycan Sovet Ensiklopediyasında işə başlayan Y.Mahmudov burada həqiqətən də böyük bir məktəb keçir. ASE-nin baş redaktoru, Azərbaycanin xalq yazıcısı, milli dəyərlərimizi sintez şəklində özünün çoxşaxəli fəaliyyətində birləşdirən və bu dəyərlər uğrunda mübarizələrə qatlaşan Rəsul Rza məktəbi, Y.Mahmudovun özünün dəfələrlə qeyd etdiyi kimi, həyatda ona çox şey öyrətmiş, onu xalq azadlıq mühitinə, milli dirçəliş ideyalarına, milli köklərimizə bağlamışdır.

ASE-də tarixə aid sözlüklərin, məqalələrin hazırlanmasına başçılıq edən Y.Mahmudov bir an da olsun milli məfkurəni unutmur, R.Rza kimi bu amili hər yerdə və hər zaman ön plana çəkirdi. Onun 2005-ci ildə nəşr olunmuş "Azərbaycan: qısa dövlətçilik tarixi" əsərində qeyd etdiyi kimi, ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkkülündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Xalq Cumhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cumhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar" (Y.Mahmudov. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı, 2005, s.96-97).

ASE-də işlədiyi illərdə onun ən böyük xidmətlərindən biri Azərbaycan tarixinə aid xəritələrin və atlasların tərtib və nəşr edilməsinə nail olmasıdır. Həm R.Rza, həm də Y.Mahmudov bir neçə onilliklərdən sonra baş verəcək hadisələri sanki qabaqcadan görərək Azərbaycanin tarıxı torpaqlarının xəritə və atlaslarının mütləq nəşr edilməsinə

çalışırdılar. Y.Mahmudov həmin xəritələrin nəşri üçün dəfələrlə SSRİ-nin müxtəlif şəhərlərində yerləşən və əsasən ermənilərin yuva saldığı xəritəçilik mərkəzlərində olmuş, bir çox maneələri dəf edərək onların nəşrinə nail olmuşdu. 1972-ci ildə bu xəritələrin və atlasların nəşri ensiklopediyaçıların çox böyük uğuru olmaqla yanaşı, xalqımız və elmimiz qarşısında misilsiz xidmətdir. Lakin Azərbaycan xalqının düşmənləri də yatmırdılar və hər vasitə ilə ASE-də başlanmış bu böyük milli intibaha mane olmaq planları işləyib hazırlayırdılar. Onların səyi və fitnə-fəsadı nəticəsində Azərbaycan tarixinə "yaşıl ensiklopediya" adı altında daxil olmuş bu ensiklopedik toplunun nəşri I-ci clddən sonra dayandırıldı və hətta o dövriyyədən çıxarıldı. Çünki oradakı ideyalar Sovet dövlətinin yeritdiyi siyasətə uyğun gəlmirdi və milliyyətçiliyin yayılmasına, xalqın özünüdərkinə xidmət edirdi. Təbii ki, sovet dönəmində belə addımlar cəzasız qala bilməzdi. Lakin həmin illərdə Azərbaycan KP MK-nın başında duran və özünün milli təəssübkeşliyi ilə başqa MK katiblərindən fərqlənən Heydər Əliyev ensiklopediyaçıları təqiblərdən və cəzalardan qoruya bildi.

Y.Mahmudov 70-ci illərdə ASE-də işləməklə bərabər, pedaqoji fəaliyyətini davam etdirir, həmçinin doktorluq dissertasiyası üzərində işləyirdi. 70-80-cı illərdə o, elmi axtarışlarının nəticəsi olan bir sıra bir-birindən dəyərli və maraqlı əsərlərini - "Öyrənilməmiş səhifələr" (1972), "Səyyahlar Azərbaycana gəlir" (1977), "Odlar yurduna səyahət" (1980), "Səyyahlar, kəşflər, Azərbaycan"" (1985), "XV əsrin ikinci yarısında Azərbaycanın Avropa ölkələri ilə əlaqələri"" (1986) və b. nəşr etdirir. Bu əsərlər Azərbaycan elmi ictimaiyyəti tərəfindən tarixşünaslığımıza qiymətli bir töhfə kimi dəyərləndirilir. Bunların əsas mövzusu yenə də Vətən, onun dövlətçiliyi, bu dövlətçiliyin Avropa dövlətləri tərəfindən taninması idi. Bu əsərləri ilə Y.Mahmudov bir daha Sovet imperiyasına meydan oxuyur, vaxtilə Avropa dövlətləri tərəfindən tanınan, beynəlxalq münasibətlər sisteminə qoşulan, bərabərhüquqlu müqavilələr imzalayan bir xalqın indi müstəmləkə vəziyyətində olmasının səbəbləri üzərində düşüncələri ortaya qoyurdu.

Onun 1989-cu ildə Moskva Dövlət Universitetinin Tarix fakültəsində "Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası keçmiş SSRİ -nin aparıcı alimləri tərəfindən yüksək qiymətləndirilmiş və çapa məsləhət görülmüşdü. Bu dissertasiyanın milli ideologiyamız baxımından çox böyük əhəmiyyəti onunla izah olunur ki, Avropa və İran tarixşünaslığının, hətta bir çox rus və türk tarixçilərinin Azərbaycan Səfəvi dövlətini İran dövləti kimi təqdim etmələrinə və tanımalarına baxmayaraq, Y.Mahmudov çoxsaylı mənbələrə söykənib, Səfəvilər dövlətinin Azərbaycan türk dövləti olduğunu bir daha sübuta yetirmiş və bunu geniş elmi ictimaiyyətə, ilk növbədə Rusiya elmi ictimaiyyətinə çatdırmışdı.

Məlumdur ki, XX əsrin 80-cı illərinin sonu Sovet imperiyasında siyasi və iqtisadi böhranın kəskinləşdiyi bir dövr idi. İmperiyanın, demək olar, bütün respublikalarını milli-azadlıq hərəkatları bürümüşdü. Böhrandan çıxış yolu tapmaqda aciz olan imperiya rəhbərləri milli respublikalarda hələ çar hakimiyyəti dövründən miras qalmış bir siyasətə - milli ucqarlarda milli münaqişələr törətmək siyasətinə əl ataraq Azərbaycanda qondarma Dağlıq Qarabağ problemini ortaya atdılar, Azərbaycanı müharibə girdabına sürüklədilər. 1 milyon azərbaycanlı Ermənistan və Qarabağ ərazisindən, doğma yurd-yuvasından qovuldu. Azərbaycan xalqı özünün tanınmış ziyalılarının ətrafında sıx birləşərək ayağa qalxdı və haqq səsini ucaltdı. Yaqub Mahmudov bu ziyalıların ön sıralarında idi. Həmin dövr Yaqub Mahmudovun fəaliyyətinin və yaradıcılığının çox qaynar bir dövrü idi. O artıq bir pedaqoq və alim kimi deyil, eyni zamanda bir ictimai-siyasi xadim kimi mübarizə meydanına atılmışdı. Bakı Dövlət Universitetində tarix fakültəsinin dekanı olan Y.Mahmudov respublikada azadlıq hərəkatının mərkəzlərindən birinə

çevrilən fakültənin tələbələrinin coşub daşmaqda olan milli hisslərini düzgün məcraya yönəldir, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün müxtəlif vasitələrdən istifadə edirdi.

Yeri gəlmişkən, bu il, yəni 2009-cu ilin sentyabrında 90 illiyini qeyd edəcəyimiz Bakı Dövlət Universitetinin tarixi adının bərpasının təşəbbüsçüsü də o zaman Y.Mahmudov olmuşdur, məhz onun səyi ilə Universitet Elmi Şurası universitetin tarixi adının bərpası haqqında qərar qəbul edir. Tez-tez kütləvi informasiya vasitələrindən, müxtəlif cəbhə bölgələrindən Y.Mahmudovun səsi gəlir, o, alovlu, vətənpərvər çıxışları ilə xalqımızı milli istiqlaliyyət mübarizəsinə ruhlandırır, zamanın sürətlə dəyişən hadisələrinə aydınlıq gətirir, xalqa bələdçilik edirdi. O günlərin hadisələri bir daha göstərdi ki, Yaqub Mahmudov həmişə müsəlləh bir əsgər kimi Vətənin və qəlbinin ilk çağırışı ilə ən təhlükəli məqamlarda və məkanlarda özünü xalqın dadına yetirir. Lazım gələndə onun Əlahəzrət Qələmi və Sözü silaha çevrilir, xalqın düşmənlərini qılınclayır.

Həmin illərdə Y.Mahmudovun elmi yaradıcılığının mövzu dairəsi də xeyli genişlənir. Azərbaycançılıq məfkurəsinin kütlələr içərisində geniş təbliğ olunmasına ciddi ehtiyac duyulduğu bir zamanda o, Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə, IX – XI əsr Azərbaycan dövlətlərinə, Azərbaycan tarixinin intibah dövrünə, orta əsrlər dövründə Azərbaycan diplomatiyasına, türkdilli xalqların tarixi keçmişinə həsr olunmuş tədqiqat əsərlərini nəşr etdirməklə yanaşı, Azərbaycan tarixinin tədqiqi, tədrisi və təbliğinə diqqət yetirir, təhsil sistemində islahatlar aparılmasının vacibliyini gündəmə gətirirdi. Onun səyi ilə hələ ötən illərdə BDU-nun tarix fakültəsində bir sıra yeni ixtisaslar açılmış, yeni elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlamış, Arxeologiya muzeyi açılmış, Türk odası yaradılmış, keçmiş SSRİ-nin aparıcı ali məktəbləri ilə sıx əlaqələr qurulmuş, azərbaycanlı tələbələrin İttifaqın müxtəlif ali məktəblərində təhsil alması mümkün olmuşdu.

1991-ci ildə Azərbaycan öz milli müstəqilliyini bərpa etdikdən sonra Y.Mahmudov müstəqil Azərbaycanın yeni dövlət quruculuğunda yaxından iştirak edir. İlk növbədə uzun illər təhsil sistemində böyük səriştəsi və xidməti olan bir pedaqoq və alım, daim yenilik axtarışında olan bir islahatçı kimi Azərbaycan Respublikasinin yeni təhsil qanununun hazırlanması üçün yaradılan ekspert işçi qrupuna rəhbərlik edir və həmin qrup müstəqil Azərbaycanin ilk təhsil qanununu hazırlayır.

Məlumdur ki, 90-cı illərin əvvəlləri Azərbaycan tarixinin ən mürəkkəb bir dövrü – "olum ya ölüm" dövrü idi. Bu illərdə respublikamız bir sıra çətinliklərlə üzləşir. Ölkə daxılındəki və xaricindəki bir çox düşmən qüvvələrin fəaliyyəti müstəqilliyimizi təhlükə altına aldığı vaxt Y.Mahmudov xalqı bu fəlakətli vəziyyətdən, vətəndaş müharibəsi və milli qırğından qurtarmaq iqtidarında olan yeganə şəxsin məhz Heydər Əliyev olduğunu görür və hər vasitə ilə bu fikri geniş ictimaiyyətə aşılamağa çalışırdı. Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaradılması, onun məqsədi və məramı Y.Mahmudov tərəfindən alqışlanmıs və o, 1992-ci ilin dekabr ayında "Səs" qəzetindəki məqalələrində Yeni Azərbaycan Partiyasının əgər elan etdiyi yolla gedərsə, tezliklə ən kütləvi partiya olacağı haqqında proqnozlarını vermiş və onun bu ehtimalları tamamilə özünü doğrultmuşdu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı və Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqın milli qurtuluşu, xilası demək idi. Y.Mahmudov Heydər Əliyevi Yeni Azərbaycanın qurucusu, qurtuluş mübarizəsinin qalibi, Azərbaycan dövlətçiliyinin xilaskarı hesab edirdi. Tarixçi alim üz dərin məsmunlu analitik çıxışlarında, yazılarında Heydər Əliyevin siyasi kursunu tamamilə müdafiə edir, onun daxili və xarici siyasət sahəsindəki tədbirlərinin mahiyyətini genis kütlələr qarşısında, müxtəlif informasiya vasitələrindəki çıxışlarında, elmi-publisistik yazılarında ətraflı şərh və izah edir-

di. Onun bütün fəaliyyəti Azərbaycançılığa, xalqın milli təfəkkürünün formalaşmasına xidmət edirdi və milli mənafeyə nə qədər bağlı olmasından xəbər verirdi.

Heydər Əliyevin prezidentliyi dövrü Azərbaycanın Qarabağ müharibəsində atəşkəsə nail olduğu, əmin-amanlıq, sabitlik, bütün sahələrdə dirçəliş və tərəqqi dövrü idi. Həmin illər Y.Mahmudovun yaradıcılığında da bir sıra yeniliklərlə əlamətdar olmuşdu. Qeyd etmək yerinə düşər ki, Y.Mahmudov həmişə zamanın aktual məsələlərinə bir vətəndaş və alim həssaslığı ilə, ürək yanğısı ilə yanaşır, yəni dövrün, zamanın elə bir mühüm hadisəsi yoxdur ki, Y.Mahmudov ona öz münasibətini bildirməsin. 90-cı illərdə onun yaradıcılığının böyük bir istiqamətini müstəqil respublikanın orta və ali məktəbləri üçün milli konsepsiyaya əsaslanan yeni dərsliklərin, dərs vəsaitlərinin, proqramların hazırlanması təşkil edir. Məlumdur ki, gənc nəslin milli vətənpərvərlik ruhunda düzgün tərbiyə olunması işində məhz tarix dərsliklərinin çox böyük əhəmiyyəti və rolu vardır. Y.Mahmudov öz dərslikləri və dərs vəsaitlərinə, onların ilk səhifəsindən son səhifəsinədək, Vətənə məhəbbət ruhu hopdurmuşdur. Tarix boyu Vətənin torpaqları haradan başlayır, harada qurtarır, yağı düşmən Vətənimizin zəngin sərvətli torpaqlarını ələ keçirmək üçün hansı fitnə-fəsadlara əl atır, xalqımızın doğma yurdu qorumaq naminə ən həlledici anlarda sıx birləşə bilməsi, dövlətlərimiz, tarixi səxsiyyətlərimiz, uğurlarımız, səhvlərimiz və s.problemlər gənc nəslə çox maraqlı şəkildə, ibrətamiz misallarla, mənbələrdən verilmiş parçalarla təlqin və təbliğ edilir.

Bu illərdə Y.Mahmudovun redaktorluğu və həmmüəllifliyi ilə 7-ci və 8-ci siniflər üçün "Azərbaycan tarixi", "Ümumi tarix"", 5-ci sinif üçün "Ata yurdu" dərslikləri, ali məktəblər üçün "Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər)". "Azərbaycan tarixi. İntibah dövrü (IX əsrin II yarısı – XIII əsrin əvvəlləri)"" adlı dərsliklər, "Azərbaycan diplomatiyası" adlı dərs vəsaiti, çoxsaylı proqramlar, metodik nəşrlər və s. hazırlanmış və çap olunmuşdur.

90-cı illərin ikinci yarısından sonrakı dövrdə Y.Mahmudov Azərbaycan dövlətçiliyi tarixinin daha dərindən tədqiqi ilə yanaşı, Şərq xalqlarının, ilk növbədə türk xalqlarının tarixi keçmişinin öyrənilməsinə xüsusi önəm verir, Azərbaycanın qədim türk məkanı olmasını, qədim oğuz türk tayfalarının bu yerlərin avtoxton əhalisi olmasını, türk-islam birliyinin Azərbaycan xalqının formalaşmasında oynadığı rolu, bütövlükdə Şərq mədəniyyətinin Qərbə göstərdiyi mütərəqqi təsiri, müsəlman Şərqinin dünya mədəniyyəti xəzinəsinə bəxş etdiyi nailiyyətləri, yetirdiyi tarixi şəxsiyyətlərin fəaliyyətini tədqiq edir. Həmin illərdə oğuz türk xalqları ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin qeyd olunması ilə əlaqədar Y.Mahmudov dastanın tarixi səpkidə öyrənilməsinə başlayır. Onun bu mövzuda yazdığı əsərlər dastanın təkcə ədəbi abidə deyil, xalqımızın etnogenezi promlemini öyrənmək üçün çox qiymətli mənbə olduğunu sübuta yetirir. Dövri mətbuat səhifələrindəki silsilə məqalələri geniş ictimaiyyətin böyük marağına səbəb olur. Bu məqalələri və müxtəlif elmi konfranslardakı, radio və televiziyadakı çıxışları ilə elmi ictimaiyyəti dastanın məhz tarixi səpkidə öyrənilməsi zərurətinə istiqamətləndirir. Təsadüfi deyil ki, bundan sonra bir çox gənc tarixçilər "Kitabi-Dədə Qorqud" dastanını müxtəlif aspektlərdən tarixi qaynaq kimi tədqiq etməyə başlayırlar.

Y.Mahmudov bu illərdə həmçinin Azərbaycan Xalq Cumhuriyyətinin tarixinin öyrənilməsi ilə məşğul olur. AXC-nın 85 illiyi ilə əlaqədar olaraq Respublika prezidentinin tapşırığı ilə "Azərbaycan Xalq Cumhuriyyəti" ensiklopediyası"nın hazırlanması Y.Mahmudovun baş redaktorluğu ilə həyata keçirilir. 2004-cü ildə çapdan çıxmış bu iki cildlik ensiklopediya Y.Mahmudovun millətin təəssübünü çəkən bir alim kimi bütün geniş spektrli fəaliyyətini özündə əks etdirir. Bu ensiklopedik toplu, sözün həqiqi mənasında, Azərbaycanın milli-azadlıq hərəkarına, Azərbaycan Xalq Cumhuriyyətinə,

onun xadimlərinə, bir sözlə Azərbaycan dövlətçiliyinə qoyulmuş möhtəçəm abidə hesab oluna bilər.

Bütövlükdə Y.Mahmudov 700-dən artıq elmi əsərlərin və müxtəlif xarakterli çap işlərinin, 25-dən artıq monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin müəllifidir.

Y.Mahmudov 2004-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna rəhbərlik edir. Burada işə başladığı ilk günlərdən institutun işini əsaslı surətdə yenidən qurmaqla yanaşı, tariximiz, bu günümüz və sabahımız üçün vacib olan, yağı düşmənlərimizin qəniminə çevriləcək, xalqımızın haqq işinin dünya dövlətləri tərəfindən tanınmasına xidmət edəcək elmi araşdırmaların aparılmasına nail olur. Nəticədə qısa bir vaxt ərzində "Qarabağın tarixi", "Naxçıvan: tarixi və abidələri", "Azərbaycanlılar – etnik-siyasi tarixə ümumi baxış" (Azərbaycan, rus və ingilis dillərində)", "Azərbaycan Xalq Cumhuriyyəti (Böyük Britaniya arxiv sənədləri)" (Azərbaycan, rus və ingilis dillərində) və b. əsərlər nəşr olunmuşdur. Müxtəlif mövzularda beynəlxalq və respublika elmi konfransları, respublikanın ayrı-ayrı rayonlarında vaxtaşırı elmi-praktik konfranslar keçirilir.

Y.Mahmudov bir ictimai-siyasi xadim və tarixçi kimi Azərbaycanı respublikanın hüdudlarından kənarda da layiqincə təmsil edir. O dəfələrlə Türkiyədə, İranda, Koreyada, Avropanın bir çox ölkələrində, ABŞ-da Azərbaycan tarixinin aktual promlemləri ilə əlaqədar çox yüksək səviyyəli çıxışlar etmişdir

Y.Mahmudov 1994-çü ildə Azərbaycan Respublıkasının prezidenti, ümummilli lider Heydər Əliyevi İran İslam Respublikasına rəsmi səfərdə müşayiət edən nümayəndə heyətinin tərkibində olmuş, 1998-ci ildə Vaşinqtonda keçirilən Dünya Azərbaycanlılarının II konqresində iştirak və çıxış etmişdir.

Milli məfkurəli bir alim kimi Y.Mahmudovun fəaliyyətinin mühüm bir tərəfini milli ziyalı kadrlarının hazırlanması təşkil edir. Y.Mahmudov Azərbaycanda ortaəsrşünaslıq elmi məktəbinin yaradıcısıdır. Onun rəhbərliyi altında onlarla namizədlik və doktorluq dissertasiyaları hazırlanmış və bunların da hamısı xalqımızın tarixi üçün böyük aktuallıq kəsb edən mövzulara həsr olunmuşdur.

Yaqub Mahmudovun xalqimiz qarşısındakı xidmətləri dövlətimiz tərəfindən yüksək adlarla və mükafatlarla qiymətləndirilmişdir. Ona "Azərbaycan respublikasının əməkdar elm xadimi" adı verılmiş, maarifçilik və elmi biliklərin təbliği sahəsindəki xidmətlərinə görə Yusif Məmmədəliyev mükafatı və medalı ilə təltif olunmuşdur. O, həmçinin Azərbaycan Respublikasının ən yüksək mükafatlarından olan "Şöhrət"" və "Şərəf"" ordenlərinə layiq görülmüşdür.

Xalqımızın yüksək etibarını və etimadını qazanan Y.Mahmudov iki dəfə Azərbaycan respublikasının Milli Məclisinə (II və III çağırışlar) deputat seçilmişdir. Xalqın təmsilçisi kimi o, Azərbaycanı ölkəmizin hüdudlarından kənarda da ləyaqətlə tanıdır və şöhrətləndirir.

Bütün bu ali keyfiyyətlərlə yanaşı Y.Mahmudov ailə başçısı, sədaqətli və mehriban ömür-gün yoldaşı, qayğıkeş ata, vəfalı dost, səmimi məsləkdaşdır.

Ömrünün 70-ci baharını yaşayan, qəlbi doğma Vətənə və xalqa əzmlə xidmət etmək arzusu ilə çırpınan, həyatının mənasını millətinin və dövlətinin tərəqqisində görən və bu yolda bacarığını əsirgəməyən, bütün çətinliklərə və maneələrə mərd-mərdanə, qəhrəmancasına və müdrikliklə sinə gərən Əziz və Sevimli Yaqub müəllim! Bu əlamətdar yubiley günündə Sizi ürəkdən təbrik edir, Sizə Tanrıdan möhkəm can sağlığı, davamlı ailə səadəti, ümmanlarca sevinc və xoşbəxlik, bütün gələcək arzularınızın həyata keçməsini diləyirik. Həmişə zirvələrdə qalın, çünki bu zirvələri Siz öz gərgin zəhmətiniz və doğma torpağa olan sonsuz məhəbbətinizlə fəth etmisiniz. Qoy, Ulu Tanrı Sizə yar olsun!